*Global Spectrum of Research and Humanities*
*ISSN: 3007-9136*
*Vol. 2 No. 2 (2025): March*

# Azərbaycan Dilinin İnkişafinda Müasir Texnologiyalarin Təsiri

[1] **Elburus Veliyev**
https://doi.org/10.69760/gsrh.010120250040

## Xülasə

Məqalədə Azərbaycan dilinin inkişafında müasir texnologiyaların təsiri araşdırılır. Dilin inkişafı tarixən sosial, iqtisadi və mədəni amillərlə sıx bağlı olmuşdur. Müasir dövrdə isə texnologiyanın sürətli inkişafı dilin təkamülünə yeni imkanlar yaradır. Azərbaycan dili də bu prosesdən kənarda qalmayaraq, texnoloji yeniliklərin təsiri ilə zənginləşir və genişlənir. Məqalədə dilin inkişafı üçün daxili (dilin öz imkanları) və xarici (texnologiya, qloballaşma, digər dillərlə əlaqə) faktorların rolu vurğulanır.
Müasir texnologiyalar, xüsusilə avtomatik tərcümə sistemləri (Google Translate, DeepL kimi), süni intellekt və internet platformaları, Azərbaycan dilinin təbliği və öyrənilməsində mühüm rol oynayır. Bu texnologiyalar dilin lüğət tərkibinə yeni terminlər əlavə edir, təhsil və mədəniyyət sahələrində dilin istifadəsini genişləndirir. Eyni zamanda, sosial şəbəkələr və onlayn resurslar vasitəsilə Azərbaycan dili dünya miqyasında tanınır.
Lakin texnologiyanın mənfi təsirləri də mövcuddur. Xüsusilə gənc nəslin xarici dillərə meyli və Azərbaycan dilinin gündəlik istifadədə azalması dilin strukturunu zəiflədə bilər. Buna görə də, dilin zənginliyini qorumaq və düzgün istifadəni təmin etmək üçün fərdi və cəmiyyət səviyyəsində tədbirlər görülməlidir. Məqalədə dilin inkişafı üçün tədqiqatların davam etdirilməsi və texnoloji yeniliklərdən düzgün istifadə edilməsi tövsiyə olunur.
Məqsəd: Azərbaycan dilinin inkişafında müasir texnologiyaların müsbət və mənfi təsirlərini araşdırmaq, dilin qorunması və inkişafı üçün tədbirlər təklif etmək.
Metodlar: Dilçilik nəzəriyyələri, texnoloji yeniliklərin təhlili, sosial və mədəni amillərin araşdırılması.

**Açar sözlər:** *Azərbaycan dili, müasir texnologiyalar, dilin inkişafı, avtomatik tərcümə sistemləri, sosial şəbəkələr*

## GİRİŞ

Dilin inkişafı hər bir dövrdə aktual olaraq qalmaqda olan problemli məsələlərdən biridir. Dilin inkişafı müxtəlif səsəblərlə bağlı ola bilər. Buna görə də onu yalnız bir səbəblə bağlamaq düzgün olmazdı. Tarixən dilçilər dilin inkişafı, təkmilləşməsi və dəyişməsi qaydaları ilə bağlı tədqiqatlar aparmış bu məsələni diqqət mərkəzində saxlamışlar. Dilin inkişafı ilə bağlı dilçilər müxtəlif mülahizələr irəli sürsə də bu məsələnin tam olaraq dəqiq şərh edildiyini qeyd etmək olmaz. Dilin inkişafı deyilən zaman onda olan səslərin, sözlərin, söz birləşmələrinin, şəkilçilərin və qrammatik əlaqələrin müntəzəm olaraq dəyişməsi və zənginləşməsi nəzərdə tutulur. Dilin inkişaf etməsi, onun zəngin tarixə malik olması həmin dövrdə baş verən sosial, iqtisadi və mədəni əlaqələrin nə qədər təsiredici olmasından irəli gəlir. Dilin inkişafı onun gələcək nəsillərə ötürülməsi, qorunub

[1] Vəliyev, E. PhD in Philology, Associate Professor, Nakhchivan State University. Email: elburusveliyev79@gmail.com. ORCID: https://orcid.org/0009-0002-1462-305X.

saxlanması, öz zənginliyini itirməməsi üçün daim yeniliklər axtarışına çıxması deməkdir. Bu inkişafın davam etməsi üçün insanlar bir-biri ilə ünsiyyət qurmalı, düşüncələrini daim ifadə etməli və onun irəli getməsi üçün yeniliklər ortaya qoymalıdır.  XX əsrin əvvəllərində dilçilik ədəbiyyatşünaslıq, fəlsəfə, məntiq, psixologiya və tarixlə konkret əlaqədə idisə, indi bu əlaqələrin əhatə dairəsinə onlarca yeni elm daxil olmuşdur. Müasir dövrdə elmlərarası qarşılıqlı təsir prosesinin belə sürətlə getməsinin mahiyyəti bir çox məsələlərlə bağlıdır. Bəzilərinin qeyd etdikləri kimi, bu proses ilk növbədə hazırkı dövrün elmə olan yüksək ictimai tələbi ilə əlaqədardır. Azərbaycan dili də son illərdə texnologiyanın, elmin və cəmiyyətin dəyişən tələblərinin təsiri ilə sürətlə inkişaf edib. Müasir dövrdə Azərbaycan dilinin strukturunu və funksiyalarını öyrənməklə yanaşı, həm də sosial, psixoloji və texnoloji məsələlərlə bağlı yeni problemləri də öyrənməyə çalışılır ki, bu məqalədə müasir texnologiyaların, qlobal təsirlərin və xarici dillərin Azərbaycan dilinin inkişafına necə təsir etdiyini, onun müsbət və mənfi təsirlərinin nədən ibarət olduğunu müzakirə edəcəyik.

Azərbaycan dili müəyyən inkişaf prosesi keçmiş, mədəni və zəngin tarixi ilə özünəməxsus xüsusiyyətlərə malikdir. Hər bir dil təbii olaraq inkişaf edir, dəyişir və müxtəlif  xarici təsirlər nəticəsində yeni mərhələlərə qədəm qoyur. *Dilin inkişafı nə deməkdir? Dilin inkişafı dilin tərkib hissəsini təşkil edən səslərin, sözlərin, söz birləşmələrinin, şəkilçilərin və qrammatik əlaqələrin, onun müxtəlif komponentlərinə məxsus ünsürlərin müntəzəm olaraq dəyişməsi və zənginləşməsidir. Dilçilik elmində "dilin inkişafı" termini də məhz bu anlayışı ifadə edir (1).*

Dilin inkişafı barəsində Azərbaycanın bir cox dilçi alimləri öz fikirlərini irəli sürmüşdür ki, bunlardan Ə.Dəmirçizadəni, A.Qurbanovu, A.Axundovu və.s başqalarını göstərmək olar. Onlar dilçilik ilə bağlı dərsliklərində dilçiliyin tarixindən, nəzəriyyə, metod və inkişafından geniş şəkildə danışmışlar. Görkəmli dilçi-alim A.Qurbanov dilin inkişafı problemindən bəhs edərkən onun müəyyən faktorlarla bağlı olduğunu qeyd etmişdir. O, bu faktorların  daxili, və xarici faktorlar olduğunu bildirmişdir. Daxili faktorlar dilin öz imkanlarından istifadə etmə hadisəsidir. Xarici faktorlar cəmiyyətin ictimai quruluşu, ideologiyası, xalqların əlaqəsi, əhalinin etnik tərkibi, bədii ədəbiyyat, elm, sənaye, texnika və təfəkkür fəaliyyətinin inkişafı ilə bağlıdır. *"İnsan şüurunda, onun təfəkkürünün müxtəlif sahələrində baş verən hər bir dəyişiklik dildə də öz lüğəvi və qrammatik əksini tapır. Dilin inkişafında xüsusi rol oynayan xarici faktorlardan biri dillərin əlaqəsi, kontaktıdır. Bu faktor xalqlar arasında iqtisadi, siyasi, mədəni və digər əlaqələr əsasında meydana çıxır. Dünyada elə bir dilə rast gəlinməz ki, o, ancaq öz daxili vasitələrindən ibarət olsun. Bu faktorun əsasında dünya dillərində dil əlaqəsi ənənəsi yaranmışdır. Bu ənənə bütün dünya dillərində mövcuddur"* (1, s. 427).

Dövlətlərin bir-biri ilə əlaqələrinin güclənməsi, ölkə həyatında baş verən dəyişikliklər, sürətli olaraq elmin, texnologiyanın inkişafı, qloballaşmanın və  kommunikasiya vasitələrinin dəyişməsi dilin bütün sahələrdə roluna böyük təsir göstərir. Azərbaycan dilinin inkişaf perspektivləri bir çox amillərlə bağlıdır. Dilin müasir dövrün tələblərinə uyğunlaşması və qorunub saxlanılması üçün bir çox addımlar atılmalıdır. Müasir dövrdə texnologiyanın inkişaf etməsi elə bir elm sahəsi yoxdur ki, ona təsir göstərməsin. Texnologiyanın dilə təsiri nəticəsində bir çox aktual problem əsaslı

şəkildə həll olumağa başlamışdır. Müasir texnologiyalar dilin inkişafına, onun formalaşmasına və yeniliklərin meydana çıxmasında əhəmiyyətli dərəcədə rol oynayır. Artıq dövr etibarı ilə texnologiya sahəsində baş verən dəyişiliklər bir çox elm sahəsinə təsir etdiyi kimi dilçiliyə də öz təsirini göstərir. Müasir Texnologiya vasitəsləri ilə tərcümələrin aparılması, sözlərin, söz birləşmələrinin mətnlərin avtomatik tərcümə sistemləri vasitəsilə həyata keçirilməsi burada baş verən dəyişilikləri göz önünə çıxarır. Bu texnologiyalardan istifadə etməklə tərcümələrin daha asanlıqla həyata keçirilməsinə və dilin müxtəlif sahələrdə istifadəsinin genişlənməsinə imkan yaranır. Hazırda dünyanın bir çox ölkəsində bu  texnologiyalardan əlverişli şəkldə istifadə olunur. Sözlərin, söz biləşmələrinin və mətnlərin avtomatik qaydada tərcüməsində istifadə geniş şəkildə yayıldığından bu sahəyə maraq artdığından, bir çox tərcümə proqramları istfadəyə verilmişdir. Buna misal olaraq hazırda avtomatik tərcümə proqramlarınıdan (Google translate, **Microsoft Translator, DeepL Translator,  Yandex Translate) göstərmək olar. Bu** avtomatik tərcümə proqramları çoxsaylı dilləri dəstəkləyir və mətn, səs, şəkil kimi müxtəlif formatlarda tərcümə edir. Azərbaycan dilində də bu proqramlardan geniş və effektiv şəkildə istifadə olunur. Elm inkişafı sürətləndikcə bu özünü qarşılıqlı olaraq digər sahələrdə də göstərir. Hazırda dünyada bu sahədə daha da inkişaf edən və etməkdə olan süni intellekt proqramları da var. Bu proqramlar dildə də öz əksini taparaq doğru və düzgün istifadə zamanı faydalı olur.  Azərbaycanın elm və təhsil sahələrində, eləcə də mədəni həyatında baş verən dəyişikliklər dilin inkişafına təsir edir yeni dil qaynaqlarının yaranmasına gətirib çıxarır. Buna misal olaraq internetin geniş yayılmasını göstərmək olara ki, bu da Azərbaycan dilinin bir çox insan tərəfindən öyərinilməsinə və istifadəsinə şərait yaradır. İnternetin də dilin inkişafında rolunun böyük olmasını belə əlaqələndirmək olar ki, mütəlif dillərdə dil resuslarının, sözlüklərin, qrammatika kitablarının və dil kurslarının internetdə yerləşdirilməsi bu sahənin inkişafına onun irəliləməmisə gətirib çıxarır. İnternetdə Azərbaycan dilində onlayn resusların yaradılması, müasir texnologiyalar sahəsində platformaların hazırlanması, sosial şəbəkələr vasitəsi ilə Azərbaycan dilinin müxtəlif formalarda təbliğinə və inkişafına şərait yaradır. Sosial medya vasitəsilə insanlar video konfranslara qoşulur, Azərbaycan dilində geniş müzakirələr aparır, yazılar və videolar paylaşılır ki, bu da onun gündəlik istifadə dairəsini genişləndirir. Texnologiyalar Azərbaycan dilinin qorunaraq düzgün  istifadəsinə və inkişafına da müsbət təsir göstərir. Bu texnologiyalardan istifadə Azərbaycan dilinin düzgün yazılış qaydalarına köməklik edir və onun köməyi ilə Azərbaycan dilində olan köhnəlimiş söz və ifadələr qorunaraq saxlanılır. Bunu öz növbəsində dilin mövcudluğuna və inkişafına təsir edən amil kimi göstərmək olar. Texnologiyanın inkişafı Azərbaycan dilinin lüğət tərkibinə yeni anlayışlar və terminlərin formalaşmasına da mühüm töhvə verir. Azərbaycan dilinin lüğət tərkibinə internet və şəbəkə, proqramlaşdırma və texniki və yeni cihaz və tətbiq terminləri daxil olur. Bu terminlərin lüğıt tərkibinə bəzən uyğunlaşdırılır, bəzən də olduğu kimi qəbul edilir (7).

Müasir texnologiyanın təhsil sisteminə təsir göstərdiyini, Azərbaycan dilinin tədrisi zamanı müxtəlif interaktiv tətbiqlərin və onlayn dərs vəsaitlərinin əlçatanlığını qeyd etmək lazımdır. Eyni zamanda  texnologiyanın köməyi ilə ədəbiyyat, jurnalistika və incəsənət kimi müxtəlif sahələrdə dilin yaradıcı şəkildə istifadəsi ortaya çıxır. Azərbaycan dilinin dünyada tanınmasında, istifadə edilməsində, film, musiqi, televiziya və digər kütləvi mədəniyyət sahələrində texnologiya mühüm

rol oynayır. Bu sahədə görülən işlər vasitəsi ilə Azərbaycan dilindəki məzmunlar dünya miqyasında geniş auditoriyaya çatdırılır (6).

Azərbaycan dilinin inkişafında texnologiyanın inkişafını müsbət təsiri ilə yanaşı mənfi təsirlərinin də mövcud olduğunu qeyd etməliyik. İnsanların texnologiya marağının günü-gündən artdığı bu dövrdə xüsusən də gənc nəslin internet və sosial şəbəkə platformalarından müntəzəm olaraq istifadəsi dildə bir çox problemin yaranmasına gətirib çıxarır. İnsanların global dünyada baş verən dəyişikliklər nəticəsində dünya dillərinə marağının artması xarici dil istifadəçilərinin genişlənməsinə gətirib çıxarır. Bu da öz növbəsində Azərbaycan dilinin gündəlik həyatda az istifadə olunmasına, dilin üslub xüsusiyyətlərinin qorunub saxlanmaması kimi problemlərin yaranmasına və Azərbaycan dilinin sturukturunun və formasının zəifləməsinə, dildə olan sözlərin unudulmasına səbəb ola bilər.

## NƏTİCƏ

Dilin inkişafı hər zaman təbii bir proses olaraq, həm müsbət, həm də mənfi təsirlərdən keçərək formalaşmışdır. Müasir texnologiyalar, qlobal əlaqələr və sosial dəyişikliklər dilin inkişafını həm gücləndirə bilər, həm də ona zərər verə bilər. Dilin zənginliyini qorumaq və düzgün istifadəni təmin etmək üçün həm fərdi, həm də cəmiyyət səviyyəsində tədbirlər görülməlidir. Azərbaycan dilinin inkişafı üçün daim tədqiqatlar aparmalı və bu dilin geniş bir kütləyə çatması üçün texnoloji yeniliklərdən düzgün istifadə etmək lazımdır.

# The Impact of Modern Technologies on the Development of the Azerbaijani Language

**Elburus Veliyev**

https://doi.org/10.69760/gsrh.010120250040

**Abstract:**

The essay examines the influence of contemporary technologies on the evolution of the Azerbaijani language. The evolution of language has always been intricately linked to social, economic, and cultural influences. The swift progression of technology in contemporary times generates novel prospects for linguistic change. The Azerbaijani language is similarly enhanced and broadened by technical developments. The essay emphasizes the significance of internal (the inherent capabilities of the language) and external (technology, globalization, connection with other languages) aspects in language development.

Contemporary technology, notably automated translation systems (such as Google Translate and DeepL), artificial intelligence, and online platforms, significantly contribute to the promotion and instruction of the Azerbaijani language. These technologies introduce new terminology to the language's lexicon and enhance its application in education and culture. Simultaneously, social networks and online platforms facilitate the global recognition of the Azerbaijani language.

Nonetheless, technology also has adverse effects. The younger generation's propensity for foreign languages and the diminished daily utilization of Azerbaijani may undermine the language's structure. Consequently, both personal and communal actions are necessary to safeguard the language's richness and guarantee its appropriate utilization. The paper advocates for the ongoing investigation of language development and the appropriate application of technical advancements.

Objective: To analyze the beneficial and detrimental effects of contemporary technologies on the evolution of the Azerbaijani language and to recommend strategies for its preservation and advancement.

**Keywords:** *Azerbaijani language, modern technologies, language development, automated translation systems, social networks.*

## ƏDƏBİYYAT SİYAHISI

Axundov, A. (2006). *Dilçilik nəzəriyyələri və metodologiyası ilə bağlı əsərlər*. Bakı.

Babayev, N. (2019). *Dil siyasəti və dilin qorunması*. Bakı: Azərbaycan Universiteti nəşriyyatı.

Babazade, Z. (2025). Literary-critical view of the prominent Azerbaijani scholar MF Akhundzada: The first systematic examples of literary theory. *Acta Globalis Humanitatis et Linguarum, 2*(2), 38-42.

Dəmirçizadə, Ə. (n.d.). *Dilçilik sahəsindəki tədqiqatlar və dilin inkişafı ilə bağlı mülahizələr*.

Hüseynzadə, A. (2018). *Dil və texnologiya: Qarşılıqlı təsir*. Bakı: Azərbaycan Milli Elmlər Akademiyası.

Əliyev, İ. (2020). *Dilçiliyin əsasları: Nəzəriyyə və tətbiq*. Bakı: Şərq-Qərb.

Məmmədov, C. (2015). *Azərbaycan dilinin müasir problemləri*. Bakı: Elm və təhsil.

Qasımov, R. (2017). *Azərbaycan dilinin leksikologiyası və terminologiyası*. Bakı: Təhsil.

Qurbanov, A. (2019). *Ümumi dilçilik (I cild)*. Bakı.

Received: 06.03.2025
Revised: 08.03.2025
Accepted: 12.03.2025
Published: 14.03.2025